Ruzbeh MƏMMƏD

# özüylə söhbəti...



**– Mənim üçün şeir nədir?**

– Bəzən elə olur ki, aylarla bir cümlə də olsun heç nə yaza bilmirəm. Sonra özümü nəhəng boşluqda hiss edirəm. Nə zaman bir neçə misra şeir yazıramsa, o an çox sevinirəm. Axşama qədər o misraları dilimin ucunda saxlayıram. Adətən, məndən soruşurlar, niyə məhz sevgi şeirlərinə çox üstünlük verirəm, bəşəri mövzularda yazmıram. Ümumiyyətlə, mənə elə gəlir ki, şeir belə qruplaşmalı deyil: sevgi şeirləri, vətən şeirləri. Mən sevgi şeiri adlandırılan şeirləri də öz vətənim hiss edirəm. Mənə elə gəlir, şeir şairin özünə təsəlli verməyi üçün ən yaxşı vasitədir.

Özgə ögeylik var, ömür də getmir;
bu nə yıxılmaqdı, nə də ki durmaq
İlahi, tərs üzü üstə uzandım...
bu nə qırılmaqdı, necə qırılmaq?

Bu misraları yaxın vaxtlarda yazdım. Sonra bir neçə gün bu misralarla yaşadım. Mən həyatda bütün uğursuzluqlardan sonrakı parçalanmış, ümidləri pərən-pərən olmuş hal üçün deyirəm: "Bu necə qırılmaqdı, necə qırılmaq?" Sevgi şeirlərinin unudulmayan izi olur. Mən sevgi şeirlərini yaşayıb yazıram. Əgər o şeirdə az da olsun öz həyatından qatqı yoxdursa, orada sünilik yaranacaq. Tutaq ki, Birinci Dünya müharibəsi haqqında kitablardan məlumatlanmışam. Şeirdə isə onun haqqında yazsam, elə bilərəm, insanlara baxa-baxa, hətta lap gözünün içinə baxa-baxa yalan danışıram.

Məni itirdiyin kimi yox, tapdığın kimi axtar,
məni axtardığın kimi yox, darıxdığın kimi sev,
məni sevdiyin kimi yox,
sevmədiyin adamın kimi gözlə...

Şeir həm də ruhun ən yaxşı terapiya formasıdır. Ola bilər, hər vaxt şeir oxuma, dinləmə ovqatında olmayasan. Amma hər bir insanın daxilində bir gün şeir oxuma eşqi yatır. Belə müdrik söz var: "Deyilməzdən əvvəl söz, sahibinin quludur, deyildikdən sonra isə sahibi sözün quludur". Şeir də elədir. Əgər o şeirlə insan üz-üzə oturub pıçıltı ilə danışmasa, inanmıram, yaxşı şeir alınsın.

Məsələn, Cemal Süreya şeirlərinin sentimentallığının içində belə misralar yatır:

Bir qadın düşün,
bir qadın:
yarısı anadır,
yarısı çocuq,
yarısı sevgili,
yarısı eşq,
yarısı rəvayət,
yarısı həqiqət,
yarısı gündüz,
yarısı gecə...

Orxan Vəli isə bir az da dərinə gedir və insanın bütün vücudunda kövrəklik yaradacaq misralar yazır:

beni bu güzel havalar mahvetti,
böyle havada istifa ettim
evkaftaki memuriyetimden.
tütüne böyle havada alıştım,
böyle havada aşık oldum;
eve ekmekle tuz götürmeyi
böyle havalarda unuttum;
şiir yazma hastalığım
hep böyle havalarda nüksetti;
beni bu güzel havalar mahvetti.

Əgər bir gün ayılsaydım və bilsəydim ki, şeiri sevə bilmirəm, o zaman intihar edərdim. Mən bir gün ayıldım, gördüm ki, bütünlüyümlə şeiri sevirəm. Şair Orxan Vəlinin sözünə qüvvət, mən də belə günlərdə elə şeiri sevdim: Bir az soyuq, çiskinli, bir az payız dolu günlərdə...

# ...və şeirləri

***

Axşam olur, günəş batır şəhərdə;
At oynadır küçədəki qaranlıq.
Pəncərədən şəkil düşür otağa,
Darıxıram evdə ikiadamlıq...

Qonşu arvad səs eləyir ərinə,
Diksinirəm, ayılıram bu səsə,
İndi məni qorxudur elə hər şey;
İndi məni üzür, qızım, hər nəsə...

Qarşıdan da payız gəlir, üstəlik
Doğum günüm, ölüm günüm yaxındı.
Sən gedəli əlim yatmır heç nəyə,
Heç kim ilə edəmmirəm yaxınlıq...

Onda sən də balacaydın, uşaqdın,
İndi necə, böyüdümü əllərin?
İndi necə, böyüdümü əlcəyin?

Yəqin, indi məktub yaza bilirsən,
Yəqin, indi cümlələrin oxunur,
Allah haqqı, dediyin o sözlər heç,
Demədiyin sözlər mənə toxunur...

Heç olmasa bu payızda xatırla,
Heç olmasa, bir payızlıq xatırla.
Hər şey, hər şey qoyduğundan betərdi;
Sən gedəli, ölüm kimi həyatdı
Sən gedəli,
Sən gedəli darıxmalı həyatdı...

**DUALARA İNANMAQ**
(sənə bağlılığın surəsi…)

**I**
üç dəfə Allaha dua etdim:
azan səsinə görə,
rəsulallaha görə,
bir də ən axırıncı adamı bağışladığına görə...

**II**
üç dəfə Allaha dua etdim:
dedim ki, İlahi, göyərçin qanadlarına,
payızdan qopan yarpaqlara,
balaca qızcığazın göz yaşlarına bağışla bu yer kürəsini

**III**
üç dəfə Allaha dua etdim:
dedim ki, İlahi, heç vaxt gözlərimizi uzaqlara,
heç vaxt əllərimizi uşaqlara,
heç vaxt nəfsimizi insanlara möhtac eləmə,

sonra ağladım...

**IV**
bir gün minarədən gələn azan səsinə qoşuldum,
əllərimi qaldırıb dedim: məni yoxdan yaratmısan,
məni yoxdan yox elə...

**V**
anamın mübarək əllərinə görə
sənə həmişə diz çökəcəm, Rəbbim,
anamın əllərindən gözəl hədiyyə ola bilməzdi mənə...

**VI**
gecədən keçmişdi mən ayılıb pəncərədən baxanda:
qaranlıq gecəyə, ağappaq göyə baxıb utandım,
mən heç nə yarada bilmərəm, Rəbbim,
hər şeyin gözəli sənə məxsusdu...

**VII**
bir qoca kişi
gözlərinə eynəyi keçirib ağlayırdı,
deyirdi ki, məni bundan da balaca uşaq eləmədən öldür, İlahi...
Azan səsində dincəl,
günahlardan düş, yuyun,
gəl səssizcə oturaq
və darıxaq qol-boyun...

dəyişirəm içimdən;
hisslər pinti, həm kobud
bir baxışlıq gəl, qayıt,
gəl, xatirələri ovut...

məndən uzaq olanım,
nə qalıb bağlılıqdan?
yolüstü gətir mənə
bir az uzaqlığından…

özümüzə bir küçə,
bir də seçək qaranlıq,..
harda olsa, yer elə
yanında bir adamlıq...